Fənn olimpiadalarının yekun turunun mütəşəkkil keçirilməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. Fənn olimpiadalarının yekun turu 17-18 mart 2010-cu il tarixdə Bakı şəhərində keçirilsin.

2. Olimpiadaların yekun turunun iştirakçıları 17 mart 2010-cu il tarixdə qəbul edilib aşağıdakı müəssisələrdə yerləşdirilsinlər:

- Azərbaycan dili və ədəbiyyat, Azərbaycan tarixi fənləri üzrə S.C.Pişəvəri adına humanitar fənlər gimnaziyasında - V.Xuluflu küçəsi, 39, tel.: 566-65-41

- riyaziyyat, fizika və informatika fənləri üzrə fizika-riyaziyyat və informatika təmayüllü liseydə - S.Dadaşov küçəsi, 555-ci kvartal, tel.: 510-76-28

- kimya və biologiya fənləri üzrə kimya-biologiya təmayüllü liseydə - 8-ci kilometr qəsəbəsi, Ş.Mirzəyev küçəsi, 53, tel.: 423-78-42.

3. Olimpiadaların yekun turu Azərbaycan dili və ədəbiyyat, Azərbaycan tarixi, riyaziyyat, fizika, kimya, biologiya fənlərindən iştirakçıların yerləşdiyi müəssisələrdə, informatika fənnindən isə BDU-da 18 mart 2010-cu il tarixdə keçirilsin.

4. İqtisadiyyat şöbəsi (Ş.Əliyev) fənn olimpiadalarının xərclər smetasını hazırlayıb 10 gün müddətinə təsdiqə təqdim etsin.

5. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını təmin etsin.

6. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

***Misir Mərdanov,***

***Təhsil naziri***

***22 fevral 2010-cu il***